

# BAYAT



№ 20 (648)



Kəmaləddin Qədim

## SALAM, ŞAİR, DUR GEDƏK...

Nə çəkibsən, nə çəkmişəm, bilirsən,
A bağrıqan lalam şair, dur gedək...
Nə açmışam, nə bükmüşəm, bilirsən,
Həmin dilsiz, lalam, şair, dur gedək...

Gecə-gündüz qapısını döydüyüm,
Kor bəxtini qarğıdığım, söydüyüm.
Baş əydiyim, oxşadığım, öydüyüm
Atam şair, balam şair, dur gedək...

Gözlərinin biri sevinc, biri qəm,
Gör necə də diri qalıb, diri, qəm...
Alınmadın, satılmadın, bilirəm,
Bürcüm şair, qalam şair, dur gedək...

Düzlüyündən düzdə qalan düz adam,
Alov adam, ataş adam, köz adam.
Təpəsindən-dırnağına söz adam,
Hikmət şair, kəlam şair, dur gedək...

Kəlmə-kəlmə surətini çəkdiyin
Özbəözü deyiləmmi təkliyin?
Əcəlinəm, həsrətini çəkdiyin,
Gözlədiyin yolam, şair, dur gedək...

Yapış, son kəs uzatdığım əl vida,
Əl vidadı, həm də təzə-tər vida.
Bundan belə əlvidadı, əlvida,
Salam, şair, salam, şair, dur gedək...

## BİR AZ GÖZ YAŞIM QALIB...

Yaman kövrək olmuşam,
Yetən ağladıb məni.
Gələn ağladıb məni,
Gedən ağladıb məni...

Arzum, istəyim hərdən
Olub çin, ağlamışam.
Olub, uşaqlarıma
Bir az gün ağlamışam.

Fərq etməyib mənimçün,
Sayan saydığın sayıb...
Adamın yadı olub,
Dərdin yadı olmayıb.

Bəzən ağzımda yanıb
Dilim, ağladıb məni.
Lap elə bir tamaşa,
Film ağladıb məni.

Nə olsun ki, kimisə
Nədənsə qorumayıb.
Dilim-ağzım quruyub,
Göz yaşım qurumayıb...

...Daha kirpiklərimlə
Bərk-bərk qucaqlamışam.
Bir az göz yaşım qalıb,
Özümə saxlamışam...

## QOY BELƏ UNUDAQ BİR- BİRİMİZİ...

İlahi, bu yaşda verdiyin dərdə,
Bax da, heç olmasa gör birimizi.
Elə, birimizin ruhu göylərdə,
Çəkir, yaman çəkir yer birimizi...

Qoy belə unudaq bir-birimizi...
İstə qoşalaşaq, qoşa var olaq,
Elə oluruqsa qoşa xar olaq.
Nədən ki birimiz aşikar olaq,
Bilsinlər hələ də sir birimizi...
Qoy belə unudaq bir-birimizi...

Görk elə, qoy baxsın, görsün adamlar,
Alsınlar ibrətin, dərsin adamlar.
Sayıb ziyarətə gəlsin adamlar
Ocaq birimizi, pir birimizi...
Qoy belə unudaq bir-birimizi...

Tək bizmi barışdıq bu günah ilə,
Minillik günahdı bu günah elə...
Qaldır birimizi padişah elə,
Ayağı altına sər birimizi...

Qoy belə unudaq bir-birimizi...
Çəpərmi çəkmisən, çəpər, göylərə,
Çatıb, çoxdan çatıb xəbər göylərə...
Götür birimizi apar göylərə,
Tapşır, bu torpağa ver birimizi...
Qoy belə unudaq bir-birimizi...

## DÜNYA BAŞIMA FIRLANIR

Mən gəzib dolanammadım,
Dünya başıma fırlanır...
Qədəm-qədəm, addım-addım
Dünya başıma fırlanır...

Tikirəm, qururam yoxsa,
Yıxıb, uçururam yoxsa?
Mən dönüb-dururam, yoxsa
dünya başıma fırlanır?.

Bu nə gündü anam, bacım,
Nə çarəm var, nə əlacım.
O yan Şuşa, bu yan Laçın,
Dünya başıma fırlanır..

Nə mutluyam, nə xoşam mən,
Nə xəstəyəm, naxoşam mən.
Nədən belə sərxoşam mən,
Dünya başıma fırlanır...

Dörd yan ki işıqdı mənə,
Dərd də yaraşıqdı mənə.
Gör necə aşiqdi mənə,
Dünya başıma fırlanır...

## GÖZÜMÜN ALTINA YIĞIRAM ÖMRÜ...

Səhmana salıram, daha nizamın,
düzümün altına yığıram ömrü.
Toplayıb, gəlirəm əllimin üstdə,
Yüzümün altına yığıram ömrü...

Baxmıram hardasa "xala-xətir"di,
Hardasa başıma nələr gətirdi...
Elə misra-misra, sətir-sətirdi,
Sözümün altına yığıram ömrü...

Boşuna açılıb, örtülmür qapım,
Bitməyir özümlə hesab-kitabım.
Səbr oğlu səbirin, tab oğlu tabın,
dözümün altına yığıram ömrü...

Əlində gündüzüm, gecəm doğrumun,
Bu bütöv doğrumun, bu cəm doğrumun.
Ələnib ələkdən keçən doğrumun,
düzümün altına yığıram ömrü...

Mənimdi, tanıyar görən uzaqdan,
Qorudum min cürə fənddən, duzaqdan.
Çəkib qurtarıram küncdən, bucaqdan,
Gözümün altına yığıram ömrü...

## AL QOYNUNA GECƏLƏ...

*Ömür-gün yoldaşıma*

Ya bir az gec gələcək,
Ya da bir az əcələ
Bilirsən ki qorxunun
Faydası yox əcələ...

Qorxulası ay mələk,
Elə, tək qalmaqdı, tək.
Gündüzlər vaxt keçəçək,
Çox darıxsan gecələr...

...bilirsən nədi düzü;
Nə ağla, nə də üzül.
Bir gözəl günümüzü
Al qoynuna gecələ...

## YERİNDƏ DAYANIB, DURURMU DÜNYA...

Yerində dayanıb, durmurmu dünya,
Sən niyə dayanıb, niyə durasan?..
Bir gün də olmaya sənin bu dünya,
Sən ona bir ömür yiyə durasan..

Vaxt, zaman dayana qəsdinə, gələ,
Baxmaya boyuna, şəstinə, gələ.
Dərdlər qoşun çəkib üstünə gələ,
Cibində bir paslı tiyə durasan...

Bişəsən odunun, közünün üstdə,
Tutasan özünü gözünün üstdə.
Söz vermisən deyə, sözünün üstdə
Dönəsən bir quru bəyə, durasan...

Yüz suçun ola, bir bağış düşməyə,
Üzünə bir qutsal baxış düşməyə.
Başına bir damcı yağış düşməyə,
Ha açıb əlini göyə durasan...

Xəzana çevrilə gülün deyilən,
Lap ərşə dayana zülüm deyilən.
Ayrılıq deyilən-ölüm deyilən
Bir sabah qapını döyə, durasan...

## SƏNİ GÖRÜB CANNAN OLAN...

Səni görüb cannan olan
Tapsa, səndə canı tapar.
Yerişindən, duruşundan
Ədəbi, ərkanı tapar.

İstər min dərd, bəla gətir,
Qail olar sənə xətir.
Ötər səni sətir-sətir
Dərdinə dərmanı tapar.

Olmayıbdı hətta qurban,
Bu ləzzətdə, dadda qurban.
Mən boyda, mən adda qurban
Sən adda ünvanı tapar.

Baxan səmtə,yönə baxar,
Baxar, dönə-dönə baxar.
Kafər belə sənə baxar
Səndə Yaradanı tapar...

## KİM VAR, KİM YOX ÜRƏYİMDƏ...

*Kardioloq dostum Sultan həkimə*

Bir tərəfi, bir üzü var,
Künc yox, tin yox ürəyimdə.
Baxma belə ağrısı bol,
Azca kin yox ürəyimdə.

Eh, nədi ki, canı qandı,
Canı yandı, qanı yandı.
Tez qırılan, tez sınandı,
Kök yox, him yox ürəyimdə.

Yaxşı-yaxşı bax, pərdə var,
Haqdan gələn haq pərdə var.
Toxunmağa şah pərdə var,
Heyif sim yox ürəyimdə.

Dünyadı, get-gəlli, həkim,
Ha yapış dördəlli, həkim.
Nə var, nə yox, bəlli, həkim,
Kim var, kim yox ürəyimdə?..

## BÜRÜN MƏNƏ

Çatmasa da səsin-ünün,
Çatır dərdin-sərin mənə.
Xoş keçmir deyəsən günün,
Soyuq gəlir yerin mənə.

Nə oracıq, nə buracıq,
Görünmən zor açıq-açıq.
Gün kimi doğ, ay kimi çıx,
Ulduz olub görün mənə.

Hələ ömrə-günə tənsən,
İçdə qübar, saçda dənsən.
Bilirəm, çox üşüdənsən,
Durum, gəlim bürün mənə...

## ŞANSINI BİR DƏ SINA

Bir gün aşiq olasan
Nur üzlü bir qadına.
Üç-beş aya bir kitab
Bağlayasan adına.

Necə gözəl sevirsən,
Sevilirsən sanalar.
Ona hər gün yazdığın
Şeiri qısqanalar.

Asılasan özündən,
Özünə dar olasan.
Dilə-dişə düşəsən,
Aləmə car olasan.

Yaşına irad tuta,
Saçda dəni sevməyə.
Üzünə xoş baxmaya,
Bir gün səni sevməyə.

Nə vaxt dinsən, hədd qoya,
Araya sərhəd çəkə.
Sənə çəkdirsə nə var,
Özü də həsrət çəkə.

Ölümünə gün qala,
El gəlməmiş yasına
Ondan bir mesaj gələ:
"Şansını bir də sına..."